UOT 339.9
JEL F21

RÜSTƏMOVA G.R.
Sumqayıt Dövlət Universitetinin baş müəllimi
rrufet1979@mail.ru

BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN TƏTBİQİNDƏ DÜNYA TƏCRÜBƏSİ

Xülasə

Tədqiqatın məqsədi – birbasa xarici investisiyaların xüsusiyyətləri, onların stimullaşdırılması istiqamətləri və dünya ölkələrində tətbiqini təhlil etməklə birbaşa xarici investisiyaların müasir inkişaf proseslərinə təsirini öyrənməkdir.

Tədqiqatın metodologiyası – sistemli və müqayisəli təhlil.

Tədqiqatın nəticələri – birbaşa xarici investisiyaların cəlb edilməsində dünya ölkələri müxtəlif təşviq vasitələrindən istifadə edirlər. Ölkəyə birbaşa xarici investisiyaların cəlbi iqtisadi və sosial sahədə yüksəlişə təkan verir.

Açar sözlər: birbasa xarici investisiya, dünya iqtisadiyyatı, açıq iqtisadi sitem, inteqrasiya, iqtisadi artım.

GİRİŞ

Müasir dövrdə birbaşa xarici investisiyalar (BXİ) açıq iqtisadi sistemdə fəaliyyət göstərən ölkələrin inkişafı üçün mühüm stimullardan biridir. Xarici investisiyaların səmərəliliyi iqtisadi sahələr, ərazi və digər amillərə görə dəyişir. BXİ inkişaf etməkdə olan ölkələrdə, həmçinin keçid iqtisadiyyatlı ölkələrdə iqtisadi artım və inkişafa, insan kapitalının formalaşmasına kömək edir, beynəlxalq ticarətdə inteqrasiyanı və biznes mühitində rəqabətin yaranmasını stimullaşdırır. Bütün bunlar da öz növbəsində inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun aradan qalxmasına və sosial vəziyyətə müsbət təsir göstərir.

İnkişaf etməmiş ölkələrdə BXİ o qədər də böyük təsirə malik deyil. Bu onunla bağlıdır ki, həmin ölkələrdə BXİ–dan yararlanmaq üçün vacib hesab edilən təhsil, infrastruktur, texnologiya səviyyəsi mövcud deyil. Həmin ölkələrdə maliyyə bazarının inkişaf etməməsi də BXİ-dan yararlanmağa imkan vermir. Onu da qeyd etmək lazımdır ki, xarici investisiyalar inkişaf etməkdə olan ölkələrə uzun müddətdə təsir göstərir. Yəni, ev sahibi olan ölkədəki xarici investisiya həmin ölkənin dünya iqtisadiyyatına sürətli şəkildə inteqrasiya etməsini şərtləndirir. İdxal və ixracın eyni zamanda artması özlüyündə ticarət və investisiyanın bir-biri ilə sıx əlaqədə olmasını təsdiqləyir. Lakin ev sahibi olan ölkə eyni zamanda qısa və orta müddətdə olan təsirləri də nəzərə almalıdır ki, maliyyə çətinlikləri ilə üzləşəndə xarici müəssisələrin onların ölkəsində gördüyü əməliyyatlar xarici resursların azalması ilə nəticələnməsin.

Birbaşa xarici investisiyaların cəlb edilməsi üçün atılan addımlar

Dünya iqtisadiyyatında birbaşa xarici investisiyaların ölkəyə cəlbi üçün xarici investisiya qaydalarını liberallaşdırmaqla yanaşı, bir sıra əlavə qaydalar və müxtəlif təşviqlər də tətbiq edilir. Ev sahibi olan ölkələr müxtəlif strategiyalar qəbul edə bilərlər. Xarici investisiyaların cəlbi üçün edilən təşviqlərin dünya iqtisadiyyatına inteqrasiyanı təmin etmək, zəif bölgələri inkişaf etdirmək, texnoloji avadanlıqları cəlb etmək, beynəlxalq rəqabət gücü qazanmaq, məhsuldarlıq və gəliri artırmaq kimi məqsədləri vardır. Təşviqlərin əsas xüsusiyyətləri bunlardır:

- Təşviqlər dövlət tərəfindən ən çox özəl sektora verilir;
- Təşviqlər dövlətə bir maliyyə yüküdür. Bu özünü ucuz kredit və ianələr yoluyla edilən köçürmələr zamanı dövlət fondlarının azalması şəklində göstərir;
- Təşviqlər investisiyanın mahiyyətinə, regionuna, sektoruna, həcminə və zamana təsir göstərmək məqsədinə uyğun olaraq istifadə edilir;
- Təşviqlər dolayı və birbaşa olur [1].

Dünya ölkələrində təşviq praktikalarının BXİ üzərində səmərəsini araşdıran müxtəlif

tədqiqatlarlar həyata keçirilmişdir. Bu mövzuda ilk tədqiqat 1955-ci ildə Barlov və Vender tərəfindən aparılmışdır. Araşdırma zamanı Amerikalı sahibkarlarla aparılan görüşlərdə idarəçilərə xarici investisiyaya başlamazdan əvvəlkiməqsədləri soruşulmuşdur. Şirkət idarəçilərinin cəmi11%-i ev sahibi olan ölkənin vermiş olduğu təşviqlərin önəmliliyini vurğulamışdır. Bu araşdırmadan belə nəticə çıxarılmışdır ki, investisiya qərarlarında vergi təşviqlərinin roludördüncü yeri tutmuşdur. İlk əvvəl ev sahibi ölkənin milli valyutasının sərbəst dönərliliyi, dövlətləşdirməyə (eyni zamanda milliləşdirməyə) qarşı verilən zəmanətlər və sözü gedən ölkənin siyasi sabitliyi böyük təsirə malikdir. Başqa bir misal olaraq, Aharoninin 1966-cı ildə apardığı tədqiqata əsaslansaq, bu zaman aydın olmuşdur ki,Amerikanın emal sənayesindəki firmalarının xarici investisiya yatırmaları zamanı qəraralma proseduralarında ev sahibi ölkənin tətbiq etmiş olduğu vergi güzəştləri çox zəif effekt göstərmişdir.

Agodonun 1978-ci ildə Amerika firmasının Afrika ölkələrində yatırdıqları investisiyaları əhatəedənekonometrik tədqiqatında vergi imtiyazlarının xarici kapital üzərindəki effektlərinin olduqca zəif olduğu nəticəsi ortaya qoyulmuşdur. Allenin 1979-cu ildə apardığı tədqiqatın nəticələrinə görə isə, siyasi və iqtisadi sabitlik, ölkədaxili bazarın həcminin böyüklüyü, xammal kimi amillərin investisiya mühitini müəyyənləşdirməkdə effektli olduğu, vergi təşviqlərinin isə investisiya mühitini müəyyənləşdirməkdə zəif amil olduğu vurğulanmışdır. Bundan əlavə 1984-cü ildə 52 TMK arasında aparılan bir araşdırmada xarici kapitala təsiri müəyyənləşdirilən 19 amil arasındaev sahibi olan ölkə tərəfindən verilən təşviqlərin investisiya qərarları üzərindəki rolunun sıralamasında inkişaf etməkdə olan ölkələrdə 7-ci, inkişaf etmiş ölkələrdə isə 8-ci sırada yer almışdır. Bu nəticə eyni zamanda inkişaf etməkdə olan ölkələrdə təşviqlərin nisbətən daha önəmli olduğunu göstərir. İnkişaf etmiş ölkələr siyasi və iqtisadi stabillikləri, yüksək satınalma, keyfiyyətli iş gücü, rəqabətli bazarları və s. kimi amillərlə onsuz da cəlbedici investisiya iqliminə sahibdirlər. Toucheun araşdırmasında isə vergi təşviqləri investisiya qərarlarına təsir göstərən 26 fərqli faktor içərisində 13-cü sırada yer almışdır.

Yuxarıda qeyd edilən araşdırmalardan belə nəticəyə gəlmək olar ki, ev sahibi ölkə tərəfindən verilən vergi təşviqlərinin xarici investisiyalar üzərində elə bir ciddi effektiyoxdur. Xüsusilə1980-ci illərdən etibarən birbaşa xarici investisiya növlərindəbaş verən dəyişikliklər vətexnoloji irəliləyişlərlə yanaşı, xidmətlər sektorunun (xüsusilə, bankçılıq) da xarici investisiyalar içərisində yer alması hansı növ xarici investisiyalara vergi təşviqlərinin təsir etməsi sualını aktuallaşdırmışdır. Yeri gəlmişkən qeyd edə bilərik ki, hazırda dünya iqtisadiyyatında yatırılan birbaşa xarici investisiyaların 40%-dən çoxu xidmət sektorunun payına düşür.

Məsələn, İrlandiyanın son 20 ildə birbaşa xarici investisiyalarında əldə etdiyi müvəffəqiyyətdə tətbiq etdiyi vergi siyasətləri və təşviqlərinin effektli olduğu deyilə bilər. Dolayısilə vergi siyasətlərinin və təşviqlərinin bəzi xarici investisiyalara olduqca önəmli bir şəkildə təsir etdiyi açıq görünür. Bu mənada təşviqlərin xarici investisiyalar üzərindəki effektlərini nəzərdən keçirərkən əvvəlcə xarici investisiya növlərinə diqqət etmək lazımdır. Məsələn, geyim və emal sektorundakı firmalar kimi ixracyönümlü firmalar qlobal bazarda daim yüksək bir rəqabət şəraitində olduğundan, xərc azaldan bütün amillərə, o cümlədən təşviqlərə qarşı son dərəcə həssas davranırlar. Vergi təşviqlərinin effektlərini araşdırantədqiqatçı Coynenin fikrinə görə kiçik firmalar böyük firmalara nisbətən təşviqlərə qarşı daha həssasdır. Çünki bu cür firmalar vergidən qaçа bilmək üçün lazımi mürəkkəb maliyyə və insan kapitalına sahib deyildir. Dolayısilə vergi kiçik firmalar üçün önəmli bir maliyyəünsürüdür. Ən maraqlı nəticəisə xarici investorların ev sahibi olan ölkədə təşviqdən daha çox makro-iqtisadi sabitliyə, azad rəqabətli bazarlara, açıq, şəffaf, tətbiq edilə bilən vergi, ticarət, hüquqi və inzibati iqlimə və tənzimləyicilərə fikir vermələridir.

Ölkələr inkişaf etdikcə və sənayeləşdikcə BXİ ticarət dövriyyəsini artırmaqla onların qlobal iqtisadiyyata inteqrasiyasını sürətləndirir. Dünya ölkələri investisiya iqlimini yaxşılaşdırıb daha çox xarici investisiya cəlb etmək üçün müxtəlif təşviq vasitələri, qanunlar, bir sıra əlavə qaydalar tətbiq edirlər. Məsələn, regional ticarətin sərbəst olması və inteqrasiyası üzrə müxtəlif qanunlar qəbul etməklə bağlı olan bazarın həcmini artırmaqla onlar BXİ-ı öz ölkələrinə cəlb edə bilərlər. Əgər inkişaf etməkdə olan ölkələrdən olan idxalı məhdudlaşdırsalar, bu da öz növbəsində BXİ-ı cəlb etməyə

maneə olacaq. Dünya ölkələrinin bir çoxu daxili iqtisadiyyatda xarici iştirakın faydalarını maksimum dərəcədə artırmaq üçün daxili siyasətin mümkün dərəcədə yaxşı həyata keçirilməsi məsələsinə də xüsusi diqqət yetirirlər.

Dövlətlərin BXİ cəlbi istiqamətində etdikləri müxtəlif təşviqləri maddi, pul, vergi, və zəmanətlər kimi təsnifləşdirmək olar. Bu təşviqlərin hamısının eyni zamanda istifadə edilməsidə arzulanan nəticəni verməyə bilər. Ona görə də bunlar arasından rasional və ölkə ehtiyaclarına uyğun komponentləri seçib tətbiq etmək lazımdır. Maddi təşviqlərətorpaq sahəsi, ərazi və bina ilə təmin edilməsi aid edilir. Pul təşviqlərinə qarşılıqsız ianələr, stimullaşdırıcı ödənişlər, qarşılıqlı uyğun şərtli kreditlər (aşağı faizli, uzun müddətli) aid edilir. Vergi təşviqlərinə gəlir və mənfəət vergisi təşviqləri, aşağı nisbətli gəlir və mənfəət vergisi, vergidən azad edilmə, əvvəlki il zərərlərinin mənfəətdən çıxılması, sürətləndirilmiş amortizasiya, bəzi xərclərin vergidən azad edilməsi (sosial müdafiə payı ödəmələri, məşğulluqla bağlı xərclər, reklam, tanıtım və marketinq, səhiyyə xərcləri və s.), vergi krediti,vergi tətili, ƏDV təşviqləri, gömrük vergisi təşviqləri aid edilir. Zəmanətlərə kredit qarantiyaları, yüksək ticarət riski daşıyan layihələrə dövlət mənbəli risk kapitalı iştirakı, iqtisadi və ticarət risklərini əhatə edən imtiyazlı dövlət sığortası aiddir.Dünya təcrübəsində investisiyaların cəlbi üçün digər təşviqlər də tətbiq edilir ki, bunlardan infrastrukturun hazırlanması, ucuz enerji dəstəyi, investisiya öncəsi xidmətlər, maliyyə qaynaqları, investisiya layihəsi hazırlama və idarə etmə, bazar araşdırması, xammal və infrastruktur vəziyyəti, istehsal prosesi və marketinq texnikləri, təhsil, Now-How ilə bağlı yardımları göstərmək olar. Dünya ölkələrində təşviq növləri arasında ən çox pul və vergi təşviqləri tətbiq edilir. Ən çox istifadə edilən təşviq vasitəsinin aşağı dərəcəli gəlir və mənfəət vergisi olduğu görünür. Belə ki, cəmi 103 ölkədən 83-nün bu təşviq vasitəsini tətbiq etdiyi görünür.

Cədvəl 1.

Birbaşa xarici investisiyalarin səviyyəsinin ölkələr üzrə reytinqi

№	Ölkələr	Milyon dollar
1	ABŞ	354.828.00
2	Niderland	316.541.43
3	Çin	168.223.58
4	Honkonq	122.401.06
5	Almaniya	77.983.39
6	Braziliya	70.685.05
7	Böyük Britaniya	64.685.40
8	Sinqapur	63.633.43
9	Fransa	47.335.62
10	Avstraliya	42.579.72

Mənbə: Dünya Bankı:Foreign Direct İnvestment 2018

İndi isə ayrı-ayrı ölkələrdə birbaşa xarici investisiyaların tətbiqi ilə bağlı dünya təcrübəsinə bir sıra ölkələrin timsalında baxaq.

İspaniya təcrübəsi

İspaniya ixracyönlü və liberal iqtisadi siyasət yeridir. İspaniyanın xarici investisiya təcrübəsinə 1959-cu ildə başlamasına baxmayaraq, 1970-ci illərin ortalarına qədər bu mövzuda General Franconun avtoritar idarəsi altında (1939-1975) ciddi irəliləyiş əldə edə bilməmişdir. 1974-cü ildə İspaniya nisbətən liberal bir qanun ilə xarici kapitala geniş investisiya imkanları təklif etməyə başlamışdır. Bu zaman AB-nə tam üzvlük hədəfinəistiqamətlənənİspaniyada xarici investisiyalar sürətlə artmışdır. Belə ki, 1977-ci ildə aparılan araşdırmaya görə, xarici kapital iştiraklarının cəmi ixracatdakı payı 51%, cəmi idxalatdakı payı isə75% olmuşdur. AB üzvlüyü ilə birlikdə xarici kapital axınlarında ciddi artım yaranmışdır. 1985-ci ildə 1.7 milyard $ tutarında olan birbaşa xarici kapital axınları, 1990-ci ildə 14 milyard dollara yüksəlmişdir. 2002-ci ildə bu rəqəm 20 milyard $-ı keçmişdir. Xarici kapitalın İspaniyaya bu qədər maraq göstərməsinin səbəbləri kimi cəlbedici təşviq praktikaları ilə yanaşı, böyükbazarın mövcudluğu, keyfiyyətli iş gücü, yüksək olmayan vergilər, əsrarəngiz coğrafi mövqe, inkişaf etməkdə olan bazarlara yaxınlıq kimi amilləri

göstərmək olar. Ölkədə xarici kapitalı cəlb etmək üçün sabit kapital investisiyalarında 5%, maddi olmayan sabit kapital investisiyalarında isə 15% investisiya endirimi tətbiq edilir. Bundan başqa sənayedə və iqtisadi inkişafda qabaqcıl sahələrdə fəaliyyət göstərən, R&D fəaliyyəti ilə məşğul olan və yeni məhsul inkişaf etdirən firmalarada müxtəlif təşviqlər verilir. Ölkədə həmçinin bütün bunlarla yanaşı gənclərin məşğulluğu üzrə sosial nailiyyətlər üçün 50% ilə 100% arasında endirim mövcuddur.Bu imtiyazlar sayəsində ölkəyə xarici kapital axınısürətlənmişdir. Belə ki, ölkədəki firmaların 30%-ində xarici kapital ortaqlığı mövcuddur, sənayenin isə 50%-ə yaxını xarici kapital tərəfindən nəzarət olunur.

Son illərin təhlilinə görə İspaniyadakı BXİ-ın tənzimlənməsi sərmayə azadlığı təşviqinə yönəldilmiş oxşar prinsiplərə əsaslanır, baxmayaraq ki, bu vergi sahələrindən investisiya qoyuluşları barədə xəbərdarlıq tələb edir. Sistemin liberallaşdırılması ilə yanaşı eyni zamanda cəmiyyətin ictimai nüfuzuna, ictimai asayişə və təhlükəsizliyə təsir edə biləcək investisiyalar üzərində nəzarət mövcuddur. Telekommunikasiya, televiziya və radio, enerji, maliyyə qurumlarını və hava nəqliyyatı mübadiləsini, həmçinin milli müdafiə ilə əlaqəli fəaliyyətləri əhatə edən sənaye məhdudiyyətləri də mövcuddur.

İngiltərə təcrübəsi

Böyük xarici kapital ehtiyatına malik İngiltərədə təşviqlər pul və vergi təşviqləri şəklindədir. Ölkədə tətbiq edilən əsas təşviqlərə aşağıdakıları göstərmək olar:

- Kapital yardımı. İqtisadi inkişaf regionlarında kapitaltutumlu layihələrə sabit investisiya məbləğinin maksimum15%-i, əməktutumlu layihələrdə investisiya məbləğinin maksimum 40%-i nağd olaraq verilir. Burada məqsəd əməktutumlu böyük investisiyalarla regiondakı işsizliyin qarşısını almaqdır.

- R&D yardımı. İngiltərədə firmaların uzun müddətli R&D proqramlarına təşviq verilir. Bu təşviqlər yeni texnologiya araşdırmalarını əhatə edən yüksək texnologiya proqramlarını, bir neçə firma, texnologiya təşkilatları və rəsmi araşdırma qurumları tərəfindən həyata keçirilən sənaye işbirliyini, firmaların universitetlərlə birgə fəaliyyətlərini təşviq edən proqramlardır.

- Təhsil yardımı. İngiltərədə emal vəxidmət layihələrində yeni texnologiya istifadəsi ilə bağlı təhsil xərclərinin 40%-i təhsil yardımı olaraq təmin edilir.

- Mənfəət vergisi istisnası. R&D xərcləri və təşkilatlanmış sənaye zonalarındakı firmaların tikinti xərclərinin hamısı, avadanlıq xərclərinin 25%-i mənfəət vergisindən azad edilir.

İngiltərənin AB-dən çıxmasına baxmayaraq birbaşa xarici investisiyalara qoyulan məhdudiyyətlər əsasən milli təhlükəsizliyə təsir edə biləcək investisiyalara nəzarətin sərtləşdirilməsi ilə əlaqədar Avropaqaydalarına uyğundur. Son ildə qaydalara edilən dəyişilkiliklər mövcud Britaniya tədbirlərini gücləndirmiş və İngiltərə hökümətinin milli təhlükəsizlik və digər ictimai maraqar üçün hərbi ikili dəyərli kvant texnologiyası və ya kompüter avadanlıqları sahəsindəməhsul tədarük edən bir müəssisənin alınması ilə əlaqəli əməliyyatın təyin olunmasına müdaxilə etmək səlahiyyətlərini genişləndirir. Xarici sərmayənin dövriyyəsini yoxlayarkən investisiya həddinin 70 milyon funtsterlinqdən 1 milyon funt sterlinqə qədər azalması müşahidə edilir [2].

Türkiyə təcrübəsi

İlk öncə qeyd edilməlidir ki, Türkiyədə birbaşa xarici investisiyalara dəstək olan beynəlxalq təşkilatlara üzvlüklər vəbeynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər mövcuddur. Türkiyədə xarici investisiya təşviqlərinin başında investisiya endirimi dayanır. Mənfəət vergisi üzərindən tətbiq edilən bu nisbət 100%-dir. Yəni xarici şirkət mənfəətindən sabit investisiya məbləği qədər dəyər çıxıldıqdan sonra vergiyə cəlb edilir. 1998-ci ildə yeni bir əlavə tənzimləmə ilə 250 milyon $-ı aşan sənaye investisiyalarında bu təşviq 200%-ə qədər tətbiq edilmişdir. Bundan başqa, yerli avadanlıq təchizatı üçün ƏDV istisnası mövcuddur. Türkiyədə R&D investisiya layihələrinin alət, təchizat və proqram təminatı məsrəflərinin 50%-i fond qaynaqlarından kreditlənir. Kreditin verilə bilməsi üçün investor firma layihəni həyata keçirəcək imkan və infrastruktura malik olmalıdır.Layihələrin dəstək üçün uyğunluğunu müəyyənləşdirmə səlahiyyəti Türkiyə Elm və Texnologiya Araşdırma Qurumuna aiddir. 2001-ci ildə adam başına düşən ÜDM-inməbləği 1500 $ və daha az olan 36 vilayətə (daha sonra qanunda edilən bir dəyişiklik ilə bu rəqəm 49-a çatdırılıb) təşviq verilməsini uyğun görən, 5084 Saylı İnvestisiyaların və Məşğulluğun Təşviqi ilə Bəzi

Qanunlarda Dəyişiklik Edilməsi Haqqında Qanun 29 yanvar 2004-cü il tarixində parlamentdən keçmişdir. Qanun 5 il keçərli olmuşdur.

Türkiyədə tətbiq olunan investisiyaların təşviqi sistemi Türkiyə Respublikası Nazirlər Kabinetinin 2012-ci il 19 iyun tarixli "İnvestisiyalara dövlət dəstəyi haqqında Qərar"ı ilə qüvvəyə minmişdr.Təşviq tədbirləri "İnvestisiyalara dövlət dəstəyi haqqında Qərar"da nəzərdə tutulan dəstəklərin həyata keçirilməsi məqsədi ilə regionların sosial iqtisadi inkişaf səviyyəsindən asılı olaraq 6 bölgəyə ayrılmışdır. Türkiyədə həyata keçirilən dəstək tədbirlərinə aşağıdakılar aiddir:

- İdxalda ƏDV-dən azad olunma
- Gömrük rüsumundan azad olunma
- Vergi güzəştləri
- Sosial sığorta dəstəyi
- Torpağın ayrılması
- Kredit faizi dəstəyi
- ƏDV-nin qaytarılması

Təşviq tədbirləri sənaye zonalarını da əhatə edir. Bəzi hallarda sənaye zonaları üçün daha güzəştli şərtlər nəzərdə tutulur.

Son dövrlərdə Türkiyəyə investisiya qoyan xarici iş adamlarına vətəndaşlıq verilir. Bundan başqa daşınmaz əmlak alan və tikənlər də ƏDV-dən azad olunur. Bütün bu güzəştlər 2017-ci ildə Türkiyədə daşınmaz əmlak alan xarici vətəndaşların sayının 22% artmasına səbəb olmuşdur. 2017-ci ildə əcnəbilərə 22234 daşınmaz əmlak satılmışdır ki, bunların da ümumi dəyəri 4,6 milyard dollar təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın SOCAR şirkəti dünyada iş gördüyü 13 ölkə arasında ən böyük sərmayə qoyuluşunu Türkiyədə həyata keçirir. Şirkət 19.5 milyard dollarlıq sərmayə ilə Türkiyənin ən böyük xarici investorudur.Hazırda SOCAR və digər Azərbaycan investisiyaları Türkiyəyə qoyulan BXİ-ın 51%-ni təşkil edir [3]. 2008-ci ildə "Petkim"i alaraq Türkiyə bazarına daxil olan SOCAR-ın bütün layihələrində ümumilikdə 35 min nəfər çalışır. Bundan başqa Azərbaycanın neft şirkəti "STAR" neft emalı zavodu, TANAP kimi layihələri ilə də Türkiyə iqtisadiyyatına öz töhfəsini verməkdədir.

Özbəkistan təcrübəsi

Birbaşa xarici investisiyalar Özbəkistanın həyatında iqtisadi artımı müəyyən edərək iqtisadi sistemin milli səviyyəyə transformasiya prosesini sürətləndirməklə vacib rol oynayır. BXİ –ın müsbət təsiri özünü yalnız xarici mənbələr hesabına maliyyə vəsaitlərinin artmasında deyil, həm də texnoloji və institutsional dəyişikliklikliklərdə biruzə verir. Özbəkistanda BXİ-larla birgə yaradılmış müəssisələr daha yüksək texnologiyalarla təmin olunma dərəcəsinə, eyni zamanda idarəetmənin daha müasir təşkilinə görə fərqlənir. Özbəkistan xarici kapitalla birgə yaradılmış müəssisələr sayəsində ölkəyə yeni texnologiya, bazar islahatları proseslərini sürətləndirən korporativ idarəetmə davranışı idxal edir. BXİ-ın Özbəkistan iqtisadiyyatına cəlb edilməsi vəziyyətini təhlil etdikdə görünür ki, 2000-ci illərin əvvəllərində ölkəyə BXİ-ın axını əhəmiyyətsiz idi. Belə ki, onların ümumi həcmi 2004-cü ildə 1 mlrd. dolları keçməmişdir. Əsas kapitala qoyulan investisiyaların strukturunda birbaşa xarici investisiyaların payı 10%-ə çatmışdır və o xarici ticarət həcminin yüksəlməsinə ciddi təsir edə bilməmişdir. 2006-2011-ci illər xarici investisiyaların dinamikası göstərir ki, 2008-2009-cu illərdə dünyada baş verən maliyyə böhranı çərçivəsində xarici investorlar ölkə bazarındakı varlığını genişləndirməyə davam etmişlər. 2006-2009-cu illərdə investisiya resurslarına tələbin artması ilə ölkədəki vəziyyət dəyişmişdir. 2010-2011-ci illərdə Özbəkistan iqtisadiyyatında investisiyanın sürətli artımı başlamış, 2011-ci ilin sonunda xarici investisiyaların ümumi həcmi 6.7 milyard dollları keçmişdir. Xarici investisiyaların həcminin ölkədə sürətlə artması burada investisiya iqliminin yaxşılaşması ilə əlaqədardır. Bu da Özbəkistan iqtisadiyyatına investorların etibarının artması demək idi. Son 5-6 ildə ölkədə həyata keçirilən qanunvericilik aktları və beynəlxalq reytinq aqentləri tərəfindən verilən yüksək qiymətlər bunu təsdiq edir. 2010-cu ildə əgər Özbəkistanda 13 kommersiya bankı "sabitlik" reytinqi almışdırsa, indi bu bankların sayı 28-ə çatmışdır.

Son illərdə Özbəkistan iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların artım meyli dövlət zəmanəti altında layihələrin maliyyələşdirilməsində payın azalması ilə müşayiət olunur. 2015-ci ildə 15.8 milyard dollar investisiya qoyulmuşdur ki, onun da 73%-ni BXİ təşkil edir. BXİ-ın axının

artmasının vacib şərti xarici investorların milli iqtisadiyyatda fəaliyyət göstərməsi üçün sabit şərait yaratmağa yönəlmiş dövlət siyasətinin həyata keçirilməsidir.[Evraziyskiy nauçnıy jurnal.№ 6 2016] 2019-cu ilin 5 oktyabr tarixində Özbəkistanın Daşkənd şəhərində Türkdilli Ölkələrin Beynəlxalq Biznes Forumu keçirildi ki, burada investisiya imkanlarının təşviq edilməsi ilə bağlı məsələlərə baxılmışdır. Bütün türk dünyası ölkələrindən burada yüzlərlə sahibkarlar iştirak etmişdir. Bu forumun keçirilməsi Özbəkistanda xarici investisiyaların tətbiqi ilə bağlı bir sıra imkanların gerçəkləşməsinə səbəb olacaqdır.

Yunanıstan təcrübəsi

Yunanıstan hökuməti ölkəyə sərmayə yatıranlara, daşınmaz əmlak alanlara vətəndaşlıq verməyiqərara almışdır [4]. Bu fürsətdən istifadə etmək üçün sərmayənin miqdarı ən azı 2 milyon avro olmalıdır.Eyni zamanda qeyd olunmalıdır ki, hər il yalnız 200 vətəndaşlıq verilə bilər. Hazırda Yunanıstanda Avropa İttifaqı ölkələrindən olmayan vətəndaşlar 5 illik yaşayış icazəsi ala bilərlər.Bunun üçün həmin şəxs 250 min avro dəyərində daşınmaz əmlak almalıdır.Qeyd edək ki, bu kimi qaydalar Avstriya, Kipr, Malta və digər ölkələrdə də mövcuddur.Avropa İttifaqının bəzi ölkələri vətəndaşlığın belə verilməsini tənqid etməsinə baxmayaraq ölkələr investorları cəlb etmək üçün müxtəlif üsullara əl atırlar.

Gürcüstan təcrübəsi

2019-cu ilin II rübündə Gürcüstan iqtisadiyyatına yatırılan BXİ-ın həcmi 53.7% azalıb [4]. II rübdə Gürcüstan iqtisadiyyatına 187 milyon ABŞ dolları həcmində xarici sərmayə qoyulmuşdur.BXİ-ların azalması magistral qaz kəmərinin tikintisinin başa çatması, qeyri rezidentlərin birbaşa xarici investorlar qarşısında öhdəliklərinin azalması və reinvestisiyaların həcminin azalması ilə bağlı olmuşdur.Ən çox sərmayə enerji sektoruna yatırılmışdır (63.7 milyon dollar). Bu da ümumi investisiyaların 34%-ni təşkil edir. İkinci yerdə istehsal sənayesidir ki, buraya 38.4 milyon investisiya qoyulmuşdur.Gürcüstanda ən çox investisiya qoyulan sahələr arasında III yerdə otel və restoran biznesi durur.Bu sahəyə 28.1 milyon dollar sərmayə yatırılmışdır [5].

NƏTİCƏ

Birbaşa xarici investisiyaların cəlb edilməsində dünya təcrübəsinin öyrənilməsi belə nəticəyə gəlməyə əsas verir ki, ölkəyə cəlb olunan xarici investisiyaların həcmi elə bir səviyyədə olmalıdır ki, həmin ölkənin iqtisadiyyatının səmərəliliyi təmin olunmuş olsun və ölkə iqtisadiyyatına həm iqtisadi, həm də sosial sahədə müsbət təsir göstərə bilsin. Bu yanaşma Azərbaycan iqtisadiyyatı üçün də xarakterikdir və bu baxımdan xarici investisiyaların cəlb edilməsi ilə bağlı mövcud mexanizmlərin təkmilləşdirilməsi faydalı olardı.

2018-ci ildə Azərbaycana BXİ formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 4.1 milyard dollar təşkil etmişdir.Ölkə iqtisadiyyatına yatırılmış birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 76.5% təşkil etmişdir. Azərbaycan şirkətləri xaricdə 1 milyard 760.9 milyon dollar, o cümlədən neft-qaz sektoruna 633.5 milyon dollar, digər sektorlara 1 milyard 127.4 milyon dollar məbləğində birbaşa investisiya yatırıb [6].

Azərbaycana investisiya yatıran ölkələr arasında ən çox bu ölkələr seçilir: ABŞ, Böyük Britaniya, Türkiyə, BƏƏ və Niderland Krallığı.Bu ölkələrin aktiv olmasının səbəbi də Azərbaycanın karbohidrogen ehtiyatlarının əsasən həmin ölkələrin şirkətləri tərəfindən hasil edilməsidir. Nəticə olaraq qeyd olunmalıdır ki, Azərbaycanın təbii sərvətlərinin zənginliyi ölkəyə müntəzəm olaraq BXİ axının təminatıdır. Hal-hazırda neft-qaz sektoruna yönəlmiş BXİ-ın ümumdaxili məhsuldakı payı qeyri-neft sektorundakı həcmini keçsə də, Strateji Yol Xəritəsinə əsasən 2025-ci ilədək qeyri neft sektoruna yönəldilmiş BXİ-ın qeyri-neft ÜDM-dəki payının hazırkı təqribən 2.6 faizlik göstəricidən 4 faizə çatdırılması planlaşdırılır.

ƏDƏBİYYAT SİYAHISI:

1. one@iqdecision.com
2. http://caspianbarrel.org/ru/glavnaya/
3. Abbasov İ.M. Audit. Bakı, 2013, -544 s.

4. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016,-59 s.
5. https://www.cbar.az/currencies/03.12.2019.xml
6. http://www.oica.net/category/production-statistics/2006-statistics/
7. Sabiroğlu N. Qloballaşma və xarici investisiyalar. Bakı, 2006, 289 s.

Рустамова Г. Р., старший преподаватель

Мировой опыт использования прямых иностранных инвестиций

Резюме

Цел – целью данного исследования является изучение влияния прямых иностранных инвестиций на современные процессы развития путем анализа особенностей прямых иностранных инвестиций, их стимулов и их применения в странах мира.

Методология – состоит из систематического и сравнительного анализов.

Результат – страны мира используют различные стимулы для привлечения прямых иностранных инвестиций. Привлечение прямых иностранных инвестиций в страну будет стимулировать экономический и социальный рост.

Ключевые слова: прямые иностранные инвестиций, мировая экономика, открытая экономическая система, интеграция, экономический рост

Rustamova G.R., senior teacher

World experience in the use of foreign direct investment

Abstract

Purpose of the research – the purpose of this study is to analyze the impact of foreign direct investment on modern development processes, the specifics incentives and application of foreign direct investment in countries around the world.

Metodology – is consists of systematic and comparative analyses.

Findinqs - the world countries use various incentives to attract foreign direct investment. Attraction of foreign direct investment in the country will stimulate economic and social growth.

Keywords: foreign direct investment, world economy, open economic system, inteqration, economic growth